# İstanbulda 20 Yanvar faciəsi qurbanlarının xatirəsi anılıb





Türkiyə-Azərbaycan Dərnəyində (İSTAD) təşkil olunan tədbirdə əvvəlcə hər iki ölkənin dövlət himnləri səsləndirilib, sonra 20 Yanvar qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib və sonra faciyəyə həsr olunmuş fotosərgiyə baxış keçirilib. O gecənin həqiqətlərini əks etdirən fotoşəkillərin önünə tər güllər düzülüb.

Tədbirin aparıcısı, sosial elmlər üzrə tədqiqatçı, yazıçı-tərcüməçi Mətin Yıldırım 20 Yanvar faciəsi barədə məlumat verib.

Mərasimdə çıxış edən dərnəyin sədri Səfər Qaraqoyunlu, Türkiyə-Azərbaycan parlamentlərarası dostluq qrupunun rəhbəri Şamil Ayrım, Türkiyə Böyük Millət Məclisinin deputatı Hayrettin Nuhoğlu və digərləri sovet qoşunlarının 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Azərbaycanda dinc sakinlərə qarşı törətdiyi cinayət əməllərindən danışıblar. Qeyd olunub ki, Azərbaycan xalqının haqq-ədalətin bərqərar edilməsi uğrunda səsini hiddətlə ucaldaraq imperiyanın caynağından azad olmasına can atmasından təşvişə düşən SSRİ rəhbərliyi müdhiş cinayət törədib. Mərkəzi hakimiyyət beynəlxalq hüquq normalarını və ölkə qanunlarını tapdalamaqla, əhalini xəbərdar etmədən Bakı şəhərinə qoşun yeridib. Sovet Ordusu hissələrinin, xüsusi təyinatlı dəstələrin, daxili qoşunların iri kontingentinin və hətta SSRİ-nin ermənilərin sıx yaşadığı digər regionlarından olan ehtiyatdakı hərbçilərin iştirakı ilə həyata keçirilmiş hərbi təcavüz nəticəsində yüzlərlə insan qətlə yetirilib, yaralanıb və itkin düşüb. Həmin qətliamdan bir gün sonra, yanvarın 21-də xalqın böyük oğlu Heydər Əliyev Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ hakimiyyətini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verib. Bu dəhşətli və amansız terroru dünyanın mütərəqqi qüvvələri də qətiyyətlə pisləyiblər. Azərbaycanda vaxtında dərindən araşdırılmayan və adekvat qiymətini almayan faciəyə yalnız bir neçə il sonra ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə dövlət səviyyəsində siyasi-hüquqi qiymət verilib. Sonda 20 Yanvar faciəsini əks etdirən videoçarx nümayiş olunub.

* * *

Qanlı Yanvarla bağlı mərasim Yeni Yüzyıl Universitetində Azərbaycanın İstanbuldakı Baş Konsulluğunun təşkilatçılığı ilə baş tutub.

Tədbirdə çıxış edən Azərbaycanın İstanbuldakı Baş konsulu Məsim Hacıyev, universitetin idarə heyətinin sədri Azmi Ofluoğlu və bu ali təhsil müəssisəsinin əməkdaşları 1990-cı ilin 20 Yanvar hadisələri barədə məlumat verib, o gecə Bakıda və ətraf rayonlarda törədilən qanlı hadisədən danışıb, bu günün Azərbaycan xalqının qəhrəmanlıq tarixinin şanlı səhifələrindən biri olduğunu qeyd ediblər. Bildirilib ki, 20 Yanvar hadisələri zamanı 147 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər isə qanunsuz həbs olunub. Bu cinayət ölkə vətəndaşlarının hüquqlarını pozmaqla yanaşı, Azərbaycan xalqının demokratiya, milli azadlıq istəyini boğmaq məqsədi daşıyıb. Çıxışlarda Azərbaycan və Türkiyənin tarixi əlaqələrindən də söz açılıb.

Tədbir çərçivəsində universitetin qalereyasında "Qanlı Yanvar" adlı fotosərgi təşkil edilib. Sərgidə 20 Yanvar faciəsinin dəhşətlərini əks etdirən fotolar nümayiş olunub. Sərgiyə baxan universitetin müəllimtələbə heyəti və qonaqlar müstəqillik uğrunda mübarizədə şəhid olan soydaşlarımızın xatirəsini ehtiramla yad etdiklərini bildiriblər. Mərasimdə konsulluğun və universitetin əməkdaşları, siyasət, elm və mədəniyyət xadimləri, Türkiyədə yaşayan, bu ölkədə təhsil alan həmvətənlərimiz və dövlət rəsmiləri iştirak ediblər.

Onu da qeyd edək ki, Türkiyədə 20 Yanvar faciəsinin 30 illiyi ilə bağlı sənədli film çəkilib.

"Can Azərbaycan" media şirkəti tərəfindən hazırlanmış filmdə Türkiyənin İstanbul və Marmara universitetlərinin professorları Halil Bal və Okan Yeşilot, eləcə də tədqiqatçı-yazıçı Aygün Həsənoğlunun fikirləri yer alır.

Filmdə Azərbaycan xalqının qəhrəmanlıq ruhunun silahlar qarşısında yenilməyəcəyi əsas mövzu olaraq qeyd olunur.

Ekran əsərində Bakıda və ətraf rayonlarda törədilən qətliamı əks etdirən kadrlarla yanaşı, müstəqil Azərbaycanın inkişafı yer alır.

* * *

"Can Azərbaycan" media qurumu tərəfindən hazırlanan 64 səhifəlik kitabda jurnalist Günel Məlikovanın "20 Yanvar faciəsindən ötən 30 il..." məqaləsi və "Ağla, qərənfil" şeiri yer alıb. Məqalədə Azərbaycan xalqının azadlıq və müstəqillik uğrunda mübarizəsi, 20 Yanvar gecəsi baş verənlərlə bağlı xatirələr, ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bu faciənin dünyaya çatdırılması, hüquqi qiymət verilməsi və 20 Yanvar şəhidlərinin xatirələrinin əbədiləşdirilməsi istiqamətində görülən işlər və bu siyasətin Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi haqqında fikirlər yer alır. Kitabda həmçinin 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda yaşananlar bütün tarixi faktlarla dərc olunub. Həmin gecədən qalan fotolar və o gecənin canlı şahidləri ilə fotoreportajlar dərc olunub. Kitab eyni zamanda bir çox təhsil müəsisələrində dərslik vəsaiti kimi nəzərdə tutulub.

Müəllif bildirib ki, Azərbaycan xalqının hər zaman yanında olan türk oxucusu bu kitabla 20 Yanvar faciəsi haqqında kifayət qədər məlumatlanacaq.

Təqdimat mərasimində Azərbaycanın İstanbuldakı Baş Konsulluğunun nümayəndələri, elm və mədəniyyət xadimləri, ziyalılar, Türkiyədə yaşayan həmvətənlərimiz, bu ölkədə təhsil alan azərbaycanlı tələbələr və media nümayəndələri iştirak ediblər.

Mərasimdə həmçinin "Qarabağ Azərbaycanındır" imza kampaniyası keçirilib. Kampaniyaya imza atan hər kəsə kitab ödənişsiz təqdim edilib.

* * *

İstanbulda 20 Yanvar faciəsinin 30-cu ildönümü ilə əlaqədar Türk Dünyası Araşdırmaları Vəqfi, İstanbul Universiteti, Azərbaycan Mədəniyyət və Həmrəylik Birliyi və "Hazarfem" Xəzər Folklor Tədris və Araşdırma Mərkəzinin təşkilatçılığı ilə "Turan" Mədəniyyət Mərkəzində də tədbir təşkil olunub.

Mərasimdə əvvəlcə Türkiyənin və Azərbaycanın dövlət himnləri səsləndirilib, 20 Yanvar faciəsi qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Çıxış edənlər 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə Bakıda törədilən qanlı hadisədən bəhs edib, o günü Azərbaycan xalqının qəhrəmanlıq tarixinin şanlı səhifələrindən biri olduğunu vurğulayıblar. Çıxışçılar o gecə keçmiş sovet ordusu tərəfindən Bakıya qoşun yeridildiyini, əliyalın, günahsız insanların qətlə yetirildiyini qeyd ediblər. Bildirilib ki, 20 Yanvar hadisələri zamanı 146 nəfər öldürülüb, 744 nəfər yaralanıb, 841 nəfər isə qanunsuz həbs olunub. Bu cinayət ölkə vətəndaşlarının hüquqlarını pozmaqla yanaşı, Azərbaycan xalqının demokratiya, milli azadlıq istəyini boğmaq məqsədi daşıyıb.

Mərasimdə 20 Yanvar faciəsini və əsirlər boyu ermənilərin azərbaycanlılara qarşı törətdikləri qətliamları əks etdirən videoçarx nümayiş etdirilib. Tədbir İstanbul, Düzcə və Marmara Universitetlərinin professor və müəllim heyətinin məruzələri ilə davam edib.

Onuda qeyd edək ki, tədbirdə Azərbaycanın İstanbuldakı Baş Konsulluğunun əməkdaşları, elm və mədəniyyət xadimləri, tanınmış ziyalılar və media nümayəndələri iştirak ediblər.

**Esmira Yazkan ASLANOVA,**
**"Respublika"qəzetinin**
**Türkiyə üzrə müxbiri.**